

## TALEH İSLAM

**Taleh İslam oğlu Baxşəliyev** 1991-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2008-ci ildə Saray qəsəbə 1 saylı tam orta məktəbi bitirmişdir.

Ədəbi yaradıcılığa 18 yaşında olarkən başlamışdır.

"Haqqın sədası" ictimai-ədəbi qəzeti və "Xəzinə" poeziya antologiyası daxil olmaqla, bir sıra mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.

***

Xoşbəxtlik hardadı axı, ay Allah,
Bəlkə, qeyblərə çəkibdir dərgah?!
Bəlkə də, bir qəddar, zalım padişah,
Düzdürüb qaş kimi tacına qoyub...

Ya bizdən aşağı, ya bizdən uca,
Siması nurani, boyu balaca –
Məkkə səfərinə gedən bir qoca,
Dəvə belindəki xurcuna qoyub...

Göydənmi atılıb hamı yatanda,
Dağılıb yox olub yerə çatanda...
Bəlkə də bir dindar qunut tutanda,
Dua eyləyəndə ovcuna qoyub...

Bir sarı zəmidə qoşulub yelə,
Yeyib ac həşərat, gəmirib dələ...
Bəlkə də, İlahi gizlədib elə,
Görmürəm, burnumun ucuna qoyub!





***

Şükür İlahinin məsləhətinə,
Bu gün də doyunca yaşaya bildik...
Bu gün də çox şükür, bu günümüzün
Yükünü sabaha daşıya bildik...

Şükür İlahinin məsləhətinə,
Bu səhər bir ruzi payı da bildik...
Bir parka çörəkdən ötəri çıxıb,
Axşam evimizə qayıda bildik...

Şükür İlahinin məsləhətinə,
Bu gün də düşmənə açmadıq ağız...
Bizi ac qoymadı, bu gün də şükür,
Bu gün də tox yatdı balalarımız...

Şükür İlahinin məsləhətinə,
Şükür, nə verdisə yedik, çox şükür...
"Şükür İlahinin məsləhətinə"
– Cümləsin bu gün də dedik, çox şükür!

***

Şad gün əvvəlcə tutardı evimin hər tərəfin...
İndi bir küncə sığışmaqla kifayətlənirəm,
Digər üç künclə baxışmaqla kifayətlənirəm...

Bir mələk zənn eləyib öz yuxumun kabusunu
Cinlə, ifritlə boğuşmaqla kifayətlənirəm,
Qorxudan şövqə axışmaqla kifayətlənirəm...

Zülmətin vəhşi təcavüzünə qalarkən məruz,
Oluram vəhşi qapışmaqla kifayətlənirəm,
Harasındansa yapışmaqla kifayətlənirəm...

Oluram zülmətə məğlub yeni bir cəngə qədər...
Öz üzərimdə çalışmaqla kifayətlənirəm,
Bu zəifliklə barışmaqla kifayətlənirəm...

Gecə olmur mənə bir həmdəm özümdən savayı...
Evdə öz-özümə danışmaqla kifayətlənirəm,
Yolda kölgəmlə yarışmaqla kifayətlənirəm...





***

Bəs göyün neçənci qatına gəlim?
Yerdəsən, göydəsən axı, hardasan?!
O qədər bulud var indi nə bilim,
Sən hansı buludun arxasındasan...

Bu saat görməyə möhtacam səni,
Bir az vaxtım qalıb qaç gizlən hələ...
Axır ki, haçansa tapacam səni,
Yerin deşiyində olsan da belə...

Bilmirəm neyniyim, qayıdım gəlim?!
Əgər Günəşsənsə alovlanaram...
Soyuqdan ölüm ya istidən ölüm?
Gəlməsən donaram, gəlsəm yanaram...

***

Nə qəlbim sıxılar, nə daralaram,
Sən getsən gedərəm, qalsan qalaram...
İstəsən bir ömür kölgən olaram,
Gün batsın yox olum, gün çıxsın gəlim...

Haçandır soyuqdur görmürəm bahar,
Yağır dayanmadan sevgimizə qar...
Buz tutub qəlbinə gedən o yollar,
Qoy bir az şaxtalar sınıxsın gəlim...

Sən çağır, açaram neçə yol, cigar,
Baxmaram üstümə qar, yağış yağır...
Ölüm ayağında olsam da, çağır,
Əzrayıl yaxamı buraxsın gəlim...

Haçansa darıxsan, çəkinmə de ki:
– Ayrılıq yüküdür ürəyimdəki...
Bütün iş-gücümü ataram, təki
Ürəyin mənimçün darıxsın gəlim...

Şiddətli şimşəklər çaxanda çağır,
Təbiət özündən çıxanda çağır...
Küləyin səsindən qorxanda çağır,
Çay açsın səddini, sel axsın gəlim...